# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

**№ 17** **Bakı şəhəri, 26 yanvar 2017-ci il**

***"Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 dekabr tarixli 244 nömrəli qərarında dəyişikliklər edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 dekabr tarixli 244 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1125; 2014, № 7, maddə 947; 2016, № 3, maddə 593, № 4, maddə 786) ilə təsdiq edilmiş "Rəqəmsal taxoqraf kartlarının sisteminə dair Qayda"da aşağıdakı dəyişikliklər edilsin:

1. Qaydaya 4 nömrəli əlavənin "Qeyd"ində "7-ci hissəsinin, 5.4-cü və 11.5-ci" sözləri "6-cı hissəsinin, 4.4-cü və 10.5-ci" sözləri ilə əvəz edilsin.
2. Qaydaya 5 nömrəli əlavənin "Qeyd"ində "5-ci hissəsinin, 3.4-cü və 10.2-ci" sözləri "4-cü hissəsinin, 3.4-cü və 8.3-cü" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***